UOT 336.76

*Nərminə Rəhman qızı MƏMMƏDOVA*
*magistr*
*memmedova979821@gmail.com,*

*Elmi rəhbər: Firuzə Nəcəf qızı ƏLİYEVA*
*i.f.d., AKU*

# İDARƏÇİLİK FƏALİYYƏTİNDƏ LAYİHƏLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN TƏNZİMLƏNMƏSİ VƏ İDARƏ EDİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** Layihə fəaliyyətinin müqavilə üzrə tənzimlənməsində layihələrin qiymətləndirilməsi, iqtisadi səmərəsi və səmərəliliyin iqtisadi metodlarının tədqiqi və təhlil olunmasıdır.

**Tədqiqatın metodologiyası -** Tədqiqat aparılarkən ümumiləşdirmə, təhlil metodlarından, milli iqtisadiyyatın inkişafı və tənzimlənməsi ilə bağlı fərman və sərəncamlardan istifadə olunmuşdur.

**Tədqiqatın tədbiqi əhəmiyyəti -** İdarəetmə fəaliyyətində müqavilə üzrə tənzimlənmənin artırılmasında layihələrin düzgün qiymətləndirilməsi bir çox müəssisə üçün yararlı ola bilər.

**Tədqiqatın nəticələri -** İdarəetmə sahəsində layihələrin düzgün təmin olunması, onların tərtibi qiymətləndirilməsi, iqtisadi səmərəliliyin artırılmasında çox böyük əhəmiyyət kəsb edir. Çünki o, iqtisadi səmərəliliyin formalaşmasında əsas meyar kimi təqdim olunur.

***Açar sözlər: layihə, risk, nəzarət, keyfiyyət, struktur, investisiya, maliyyə.***

## *Giriş*

Müasir iqtisadi səmərəliliyin həyata keçirilməsi təkcə elmin və faktiki istehsalın inkişaf yolu ilə deyil, həm də layihə müqavilələrinin bağlanması və tənzimlənməsi yolu ilə həyata keçirilir. Layihənin icrası istehlakçı üçün layihə nəticələrinin əhəmiyyət dərəcəsinə görə yüksək dərəcədə əhəmiyyətli, orta dərəcədə əhəmiyyətli və az əhəmiyyətli layihələrə ayrılırlar.

Müasir dövrdə ölkələrdə iqtisadi inkişafın, sosial rifahın yüksəldilməsi və bu qəbildən olan digər məsələlərin həlli nəticəyə əsaslanan dövlət proqramlarının icrası ilə həyata keçirilir. Layihə idarəçiliyində vaxt, maliyyə və əmək resurslarından səmərəli istifadəni təmin edən doqquz komponent üzrə idarəçilik yanaşması, eyni zamanda nəticələrə dair yüksək keyfiyyət və operativliyi təmin edən idarəetmə prinsipləri öz əksini tapır.

Layihənin təsnifatı səviyyəsinə görə, miqyasa görə dəyişiklik, əlamətin genişliliyi, keyfiyyətə olan tələbata, onların təmin olunması üsullarına görə, iştirakçısının, investisiya fəaliyyətinin obyektinə görə, layihənin yaranmasının əsas səbəblərinə görə həyata keçirilməsi araşdırılmışdır.

Layihə yerinə yetirilərkən hər bir aralıq mərhələdə görülən işlərin gedişi və nəticələri yoxlanmalı və son məhsulun keyfiyyəti qiymətləndirilməlidir.

Layihənin əsas məqsədi sistemin, obyektin iqtisadi göstəricilərini yüksəltməkdir. Layihənin məqsədinin, tərkib hissələri və heyətini formalaşdırlma, planlaşdırma və nəzarət proseslərini həyata keçirmək üçün onun strukturunu müəyyənləşdirmək lazımdır.

**Layihənin elementləri və xüsusiyyətləri**

Layihəni vaxtında və keyfiyyətli yerinə yetirmək üçün onu düzgün idarə etmək lazımdır. Layihənin konsepsiyasını işləmək və yaratmaq üçün zəruri məsələlərdən biri onun ilkin şərtləri və məhdudiyyət tələblərinin müəyyən olunmasıdır.

Bu parametrlər aşağıdaklarla xarakterizə olunur:

- sistemin mövcud vəziyyəti ilə;
- sistemin ətraf mühiti ilə;
- layihənin nəticəsinə olan tələblərlə;

- layihənin həcminə, keyfiyyətinə, xərcinə, gəlirinə, vaxtına, ehtiyatına, riskinə və digər parametrlərinə qoyulan məhdudiyyətlərlə.

Layihənin yerinə yetirilməsində qəbul edilmiş qərarlar layihənin parametri qarşısında qoyulmuş məhdudiyyətləri təmin edir. Layihənin həyat dövrünü əhatə edən bütün sənədlər çoxluğu layihələrin sənədləşdirilmə sistemini, layihənin həyat dövrünün bütün fazalarını əhatə edir və bu sənədlər komanda heyəti ilə layihənin digər iştirakçıları arasında əlaqələrin yaranmasında müsbət rol oynayır.

Layihənin uğurla başa çatması bir sıra parametrlərlə xarakterizə olunur. Bu parametrlərdən mühüm yer tutanı layihənin nəticəsində əldə olunan texniki-iqtisadi və digər göstəricilərin xarakteristikasıdır, o cümlədən:

- işin həcmi üzrə göstəriciləri;
- işlərin icra vaxtları üzrə göstrəricilər;
- qiymət, xərc, maya dəyəri, gəlir üzrə göstəricilər;
- keyfiyyət üzrə göstəricilər;
- riks və etibarlılıq məsələləri üzrə göstəricilər;
- layihənin həyat qabiliyyəti üzrə göstəricilər;
- rəqabət qabiliyyəti üzrə göstəricilər;
- ictimai və sosial keyfiyyətlər üzrə göstəricilər.

Layihənin keyfiyyətinin idarə edilməsi funksiyaları layihənin bütün həyat dövrünü, onun bütün element və detallarını əhatə edir.

- layihə, təşkilatı və təşkilati qərarları;
- istifadə olunan materiallar, avadanlıq, xammal və sairə;
- layihə icra olunarkən görülən işlərin keyfiyyəti;
- layihə üzrə alınan nəticənin keyfiyyəti.

Layihə iştirakçılarının tərkibi, rolu, funksiyası və məsuliyyət bölgüləri layihənin növündən, miqyasından və onun mürəkkəbliyindən asılıdır. İştirakçılar arasında funksiyalar layihənin yerinə yetirilməsindən asılı olaraq dəyişə bilər. Yalnız aşağıdakı funksiyalar hamıya məlum olmaldır və dəyişdirilə bilməz:

1. Layihənin mahiyyəti tam açıqlanmalı, planlaşdırılmalı və onun təşəbbüskarı elan edilmədidir;
2. Layihədə maraqlı olan şəxslər və ya təşkilatlar müəyyənləşdirilməli, onun sifarişçisi, sahibi, müştərisi elan edilməlidir;
3. Layihəni yerinə yetirmək üçün maliyyə dəstəyi olmalı, layihənin investoru elan edilməlidir;
4. Layihəni hazırlayıb yerinə yetirmək üçün onun icraçıları elan edilməlidir;
5. Layihənin nəticəsində əldə olunan məhsul hər hansı bir istehsal və ya xidmət ilə xarakterizə olunur. İstehsalat nəticəsində əldə olunan gəlir layihənin digər sahəsinə yönəlməlidir.

İdarəetmə nəzəriyyəsi həmişə təcrübələrin nəticəsinə əsaslanan prinsiplərin formalaşması bazasında inkişaf etdirilmişdir. Layihələrin uğurla başa çatmasında biliklər bazasının böyük əhəmiyyəti vardır. Layihələrin idarə edilməsi metod və vasitələrinin tətbiq edilməsi təkcə nəticənin əldə olunmasına xidmət etmir, eyni zamanda dəyərə, vaxta, ehtiyatlara qənaət edilir ki, risk ehtiyatlarını azaldır və etibarlılıq səviyyəsini artırır. Layihəyə olan tələbləri yerinə yetirmək və iştirakçıların gözlədiyi nəticələri əldə etmək üçün layihənin icrasında bilik, təcrübə, metod və vasitələrin tətbiq edilməsi vacibdir.

Məqsədlərin müəyyənləşdirilməsi elementlərin əsas ayrılmaz hissəsidir. Ümumilikdə, hər hansı bir layihənin dəyərinin kəmiyyətcə qiymətləndirilməsinə imkan verən başlıca üç xüsusiyyət mövcuddur:

– Məhsuldarlıq - müəyyən müddət ərzində kənar təchizatçılardan əmtəə və xidmətlərin əldə edilməsinə çəkilən birbaşa xərcləri çıxmaqla istehlakçılar tərəfindən qoyulan əmtəə və xidmətlərin dəyəridir;

– İnvestisiyaların həcmi – kapital qoyuluşları və bütün səviyyələrdə ehtiyatlara yönəldilən bütün sərmayələrdir. Onlara bütün xərclər və bir maliyyə ili müddətini keçən amortizasiya müddətləri daxildir;

– Cari xərclər - hazır məhsula investisiya cəlb etmək üçün təşkilat tərəfindən xərclənən bütün vəsaitlərdir;

Layihənin strukturu – müəssisənin əlaqələri üsulu və elementlər arasında münasibətdir. Sistemin strukturunun hazırlanması zamanı sistemin bir çox elementlərinin təsviri və onlar arasındakı əlaqələr, səviyyələr və sistemin elementləri arasında münasibətdir. Layihənin strukturlaşdırılması layihənin bölmələrini aşağıdakı əlamətlərə görə daxil etməlidir:

1. Layihə məhsulunun komponentləri;
2. Həyat tsiklinin mərhələləri;
3. Təşkilati strukturun elementləri.

Layihənin strukturlaşması həyat tsiklinin mərhələlərinə görə prosesin strukturu adlanır. Təşkilatı layihələndirmə zamanı təşkilati strukturun optimallaşdırılmasının əsas aspektlərinə nəzər yetirmək vacibdir. Bunlara aşağıdakıları daxil etmək olar:

– idarəetmənin diapazonu, yəni bölmənin rəhbərinə və ya onun daxili təşkilat vahidinə tabe olan işçilərin sayı;
– idarəetmə səviyyəsinin sayı;
– işlər, proseslər, alətlərin növü, yeri;
– məhsul və ya istehlakçıların kateqoriyası üzrə fəaliyyətin detallaşdırılması;
– səlahiyyətlər və məsuliyyətlər üzrə bölüşdürmə və reqlamentləşdirmə.

Layihələr müxtəlif funksiyaları həyata keçirən zaman bir-birindən əhəmiyyətli məsafədə yerləşən insanlar tərəfindən icra edilir ki, bu zaman da, informasiya mübadiləsi və fəaliyyətin koordinasiyası məsələləri çox vacib hesab edilir. İnformasiyaların olması da eyni səviyyədə onun qıtlığı kimi layihənin həyata keçirilməsinə neqativ təsir göstərir. Həmçinin, kommunikasiya tələblərinin irəli sürülməsi və kommunikasiyaların idarə edilməsi üçün layihənin aşağıdakı aspektləri olduqca vacib sayılır:

- layihəyə cəlb edilmiş bölmələr üzrə ixtisaslar;
- layihəyə cəlb edilmiş insan resurslarının kəmiyyət və yerləşmə logistikası;
- layihə istehlakçılarının daxili və xarici informasiyaya olan ehtiyacları.

Kommunikasiyaların idarə edilməsi planına aşağıdakıları daxil etmək olar:

– layihənin iştirakçıları tərəfindən kommunikasiyalara tələblər;

– format, detallaşdırmanın məzmunu və səviyyəsi daxil olmaqla ötürülən informasiyalar haqqında məlumatlar;

– informasiyaların ötürülməsi zamanı metodlar və ya texnologiyalar;

– kommunikasiyaların tezliyi;

– işçi heyəti tərəfindən aşağı səviyyədə həll edilə bilən problemlərin yuxarı səviyyələrə ötürülmə ardıcıllığını və vaxtını müəyyən edən instansiyalar üzrə ötürülmə sxemi;

– ümumi qəbul edilmiş terminologiyaların lüğəti.

**Layihənin keyfiyyətinə nəzarət.** Ümumi mənada keyfiyyət layihənin tələb üzrə xarakteristikalarının uyğunluq dərəcəsi kimi xarakterizə olunur.

Layihədə keyfiyyətə nəzarət barədə iki aspekti ayırd etmək olar:

1. Layihənin keyfiyyəti, hansı ki, onun predmet sahəsindın asılı deyil;
2. Məhsulun keyfiyyəti, hansı ki, onun predmet sahəsi ilə müəyyən edilir.

Layihənin keyfiyyətinə nəzarət prosesinə aşağıdakı idarəetmə təsirləri daxil edilir:

– keyifiyyətin təmin edilməsinin məqsəd və kriteriyaları;
– keyfiyyət üzrə məqsədə nail olmağın metodları;
– layihədə keyfiyyətin təmin edilməsi üzrə qoruyucu tələblərin təsviri.

Keyfiyyətlərin təmin edilməsi idarəetmə tədbirlərinin kompleksi olub layihənin bütün iştirakçıları tərəfindın tələb olunan keyfiyyət göstəricilərinin təmin edilməsinə yönəldilir və sistemli xarakter daşıyır.

**Layihə risklərinin idarə edilməsi sistemi.** İnteqrasiya olunmuş layihə risklərinin idarəetmə sisteminin tərtib edilməsi prosesində aşağıdakı məsələləri həll etmək lazımdır:

– layihə risklərinin qiymətləndirilməsi və aradan qaldırılmasını müəyyənləşdirmək üçün vahid şəkilli və ardıcıl yanaşmaların tərtib edilməsi və tətbiq edilməsi;

– layihə icrası nəticəsinə daha yüksək dərəcədə təsir göstərən risklərin aşkarlanması, aradan qaldırılması üzrə səmərəli tədbirlər sisteminin işlənib hazırlanması;

– risk vəziyyətlərinin yaranmasına dərhal reaksiya göstərilməsi, daxili və xarici biznes mühitinin dəyişməsinin diqqətdə saxlanılması;

– mümkün olan risk xərclərinin azaldılması və risklərin aradan qaldırılmasına istiqamətlənmiş bütün tədbirlərlə bağlı xərclərin optimallaşdırılması;

– inteqrasiya idarəetmədə informasiya sistemləri risklərinin idarə edilməsinin innovasiya layihələrinə tətbiq edilməsi.

Layihə risklərinin idarə edilməsi prosesinin əsas mərhələləri müxtəlif şəkildə təsnifləşdirilə bilər. Mövcud olan təcrübəni nəzərə alaraq layihə risklərinin idarə edilməsi prosesi bir qayda olaraq özündə aşağıdakı mərhələləri birləşdirir:

– məqsədlər və risklər üzrə idarəetmə strategiyasının tərtib edilməsi;
– risklərin identifikasiyası;
– risklərin aradan qaldırılması;
– risklərin monitorinqi.

Risklərin aradan qaldırılması aşkarlanan və qiymətləndirilən risklərin məqbul səviyyəyə qədər çatmasını təmin edir.

Risklərin kəmiyyət analizi hər bir risk ehtimalının kəmiyyət qiymətləndirilməsinə və onun müəssisə məqsədlərinə təsirinə istiqamətləndirilir.

Riskin kəmiyyət təhlilinin keçirilməsi üçün aşağıdakı resurslardan istifadə etmək olar:

– risk - menecment planı;
– qeyd edilən risklərin təsnifatı;
– prioritet risklərin təsnifatı;
– xarici mənbələrdən məlumatlar;
– müəssisənin daxili sənədləri.

Risk əleyhinə tədbirlərin planlaşdırılması üçün tədbirlər planı tərtib edilir. Risk əleyhinə tədbirlər planı – detallaşmanın elə mərhələsinə qədər tərtib edilməlidir ki, burada artıq fəaliyyətlər həyata keçirilməlidir. Bura aşağıdakı göstəricilərdən bir neçəsi və ya hamısı daxil olmalıdır:

– risklərin aşkarlanması, onların təsviri, risklərin təsir etdiyi fəaliyyət sahəsi, onların səbəbi və həmçinin müəssisənin hədəfinə necə təsir göstərməsi;
– risk daşıyıcıları, onlarla bağlı məsuliyyət;
– risklərin kəmiyyət və keyfiyyət təhlilinin nəticələri;
– hər bir prioritet risk növlərinin idarə edilməsi üzrə razılaşdırılmış tədbirlər;
– seçilmiş strategiyanın həyata keçirilməsi üzrə spesifik tətbirlər;
– gözlənilməyən təsadüflər planı və onların təzahürləri ilə mübarizə.

**Layihə iştirakçıları (STAKEHOLDERS) və onların əsas funksiyaları**

Layihə iştirakçılarının tərkibi, rolu, funksiyası və məsuliyyət bölgüləri layihənin növündən, miqyasından və onun mürəkkəbliyindən asılıdır. Yalnız aşağıdakı funksiyalar hamıya bəlli olmalıdır və dəyişdirilə bilməz:

1. Layihənin mahiyyəti tam açıqlanmalı, planlaşdırılma və onun təşəbbüskarı elan edilməlidir.
2. Layihədə maraqlı olan şəxslər və ya təşkilatlar maliyyələşdirilməli, onun sifarişçisi, sahibi, müştərisi elan edilməlidir.

Hər bir layihə aşağıdakı tərəfləri də maraqlandıra bilər:

- yerli icra hakimiyyəti orqanlarını;
- ictimai təşkilatları;
- əhalinin müxtəlif təbəqələrini;
- vətəndaşları.

Layihənin rəhbəri hüquqi şəxs olaraq layihənin yerinə yetirilməsində sifarişçinin və investorun nümayəndəsi kimi fəaliyyət göstərir və aşağıdakı əsas işlərə cavabdehdir:

- planlaşdırma;
- nəzarətetmə;
- koordinəetmə (əlaqələndirmə).

Layihənin komanda heyəti – layihəni yerinə yetirmək və ona rəhbərlik etmək məqsədi ilə yaradılmış xüsusi təşkilatdır. Komandanın əsas məqsədi layihəni uğurla başa çatdırmaq və nəticə əldə etməkdir. Komandanın əsas heyətinin sayı layihənin mürəkkəbliyindən, miqyasından, xüsusiyyətindən asılı olaraq müəyyənləşdirilir. Komandanın əsas heyəti layihələrin rəhbərindən və texniki aspektlər üzrə işləri koordinasiya (əlaqələndirmə) edən layihənin mühəndisindən təşkil olunur.

İnvestisiya layihələrinin maliyyələşməsi üsulu layihənin maliyyə məqsədinə uyğunluğunu təmin etmək məqsədi ilə investisiya resurslarının cəlb edilməsi vasitəsi kimi çıxış edir. Layihələrin maliyyələşdirilməsi üsullarını aşağıdakı kimi nəzərdən keçirmək olar:

- özünümaliyyələşdirmə, yalnız öz vəsaitləri hesabına investisiya qoymaq;
- korporativləşdirmə, habelə kapitalın maliyyələşdirilməsinin digər formaları;
- kredit maliyyələşdirilməsi;
- lizinq.

Daxili maliyyyələşdirmə investisiya layihəsinin həyata keçirilməsini planlaşdıran müəssisənin vəsaiti hesabına təmin edilir. O, öz vəsaitlərinin - nizamnamə kapitalının, habelə müəssisənin fəaliyyəti zamanı yaranan vasitələrin, ilk növbədə xalis mənfəətin və amortizasiyanın hərəkətlərini nəzərdə tutur.

Xarici maliyyələşdirmə xarici mənbələrdən, maliyyə institutlarının, qeyri-maliyyə şirkətlərinin, əhalinin, dövlətin, xarici investorların vəsaitlərindən istifadəni nəzərdə tutur.

Səhmdarlıq investisiya layihələrinin kapitalla maliyyələşdirilməsini nəzərdə tutur. Bank investisiya kreditləri şirkətlərinin öz vəsaiti hesabına onların həyata keçirilməsini və qiymətli kağızların emissiyasını təmin edə bilmədiyi hallarda, investisiya layihələrinin kənardan maliyyələşdirilməsinin ən səmərəli formalarından biri kimi çıxış edir.

Lizinq – (lizinq ingilis dilindən “icarəyə götürmək”) lizinq obyektinin (daşınan və daşınmaz əmlakın) alınması və uzunmüddətli icarə əsasında müvəqqəti istifadəyə verilməsi nəticəsində yaranan əmlak münasibətlərinin məcmusudur. Lizinq həm sənaye investisiyası, həm də kredit əlamətlərinə malikdir. Onun ikili mahiyyəti ondan ibarətdir ki, o bir tərəfdən gəlir əldə etmək üçün maddi əmlaka investisiya qoyuluşunu nəzərdə tutduğuna görə, bir növ kapital qoyuluşudur, digər tərəfdən isə kreditin xüsusiyyətlərini saxlayır (ödəniş, təcili, qeyri-ödəmə əsasında).

İnvestisiya layihələrinin maliyyələşdirilməsi aşağıdakı vasitələrlə həyata keçirilir:

– kapital sərmayəsi; səhmlərin alınması yolu ilə nağd pul qoyuluşlarını təmsil edən;

– büdcə investisiyaları birbaşa subvensiyalar vasitəsi ilə, birbaşa investisiya proqramları hesabına həyata keçirilir;

– lizinq icarəyə verənin mülkiyyət hüququnu saxlamaqla əmlakın uzunmüddətli icarəsinə əsaslanan investisiyaların maliyyələşdirilməsi üsulu kimi (maşın, avadanlıq, nəqliyyat vasitələri və digər nəqliyyat vasitələrinin orta və uzunmüddətli icarəsi);

– Borc maliyyələşdirilməsi, hüquqi və fiziki şəxslərin bank kreditləri və borc öhdəlikləri hesabınadır.

Lizinq maliyyələşdirilməsi: onun köməyi ilə layihə iştirakçıları obyektin hamısına və ya bir hissəsinə sahiblik hüququnun pay sahibi olan investor və ya vergi güzəştlərində istifadə olunan layihənin mülkiyyətindən bütün və ya bir hissəsini alacaq investorlara verə bilərlər.

### *Nəticə*

Ölkə praktikasında layihələrin idarəetmə konsepsiyası öz əksini konkret sosial-iqtisadi məqsədlərə nail olma istiqamətlərində kompleks qarşılıqlı bağlı tədbirlərdən ibarət olan məqsədli kompleks proqramların formalaşmasının yerinə yetirilməsinin təşkilini nəzərdə tutan proqram-məqsədli idarəetmə metodunun, xüsusi ilə planlaşdırılmanın geniş tətbiqində tapdı.

Layihə anlayışı ilə bağlı verilən təriflərdən istifadə olunaraq layihə anlayışını aşağıdakı kimi xarakterizə etmək olar:

a. layihənin müəyyən bir məqsədi vardır;
b. layihə xarakterizə olunmuş və sənədləşdirilmiş bir dövrdür;
c. layihə müvəqqətidir,müəyyən vaxt limitində yekunlaşır və ya onun icrası dayandırılır;
d. layihəni maliyyələşdirən və yekun məhsulu alacaq olan subyektlər olur;
e. layihə qeyri-müəyyənlik və risk daşıyır.

Ümumi halda qeyd etsək, hər hansı bir fəaliyyətin layihə adlandırılması üçün, həmin fəaliyyət aşağıda qeyd olunmuş xüsusiyyətlərdən minimum birini özündə daşımalıdır:

1. dəyişiklik yaratmalı;
2. vahid strategiyanın həyata keçirilməsinə istiqamətləndirilməli;
3. müəyyən problemin həllində təsirli olmalıdır.

Bütün bu məqsədlərlə biznes idarəçiliyində layihə fəaliyyətinin müqavilə üzrə tənzimlənməsi və iqtisadi səmərə və səmərəliliyin artırılmasına nail olmaq olar. Layihə idarəçiliyində uğur meyarları olaraq göstərilən büdcə, keyfiyyət, zaman və ölçü bir-biri ilə bağlı meyarlardır.

### ƏDƏBİYYAT

1. İ.A.Babayev. Layihələrin idarə edilməsi metodologiyası: Monoqrafiya, Bakı, “Elm”, 300 s.
2. İ.A.Babayev. Layihələrin idarə edilməsi. Milli kompotensiyaların əsasları. Peşəkar biliklərin əsasları. Milli sertifikatlaşdırma sistemi / NCV (az) – Bakı, “Çaşıoğlu”, 2002, 214 s.
3. İ.A.Babayev. Layihələrin idarə edilməsi, Bakı, 120 s.
4. N.Karayev. İnnovasiya menecmenti, Bakı, 2011.
5. K.Şahbazov. Menecment, Bakı, 2007.
6. Diter Druker. Mənfəət güdməyən təşkilatlarda menecment, Ankara, 1994.
7. http://www.cit.tuberlin.de/uploads (media) project management.pdf.
8. http://www/blump.eu/user/eesu.de/bluepcu/dmn/inhatpmz.pdf.

***магистр, Нармина Рахман кызы Мамедова***
***науч. рук. Фируза Наджаф кызы Алиева***
***доктор экономических наук, АКУ***

## Регулирование и управление проектным финансированием в управленческой деятельности

### *Резюме*

**Цель исследования** - изучение и анализ оценки проектов, их экономической эффективности, а также экономических методов эффективности проектов при договорном регулировании и управлении проектной деятельности.

**Методология исследования** - При проведении исследования использовались методы об общения и анализа, а также указы и распоряжения, связанные с развитием и регулированием национальной экономики.

**Прикладная значимость исследования -** Правильная оценка проектов при росте договорного регулирования в бизнес-деятельности может быть полезна для многих организаций.

**Результаты исследования** - Правильное обеспечение проектов в сфере бизнеса и их содержательная оценка имеют большое значение в повышении экономической эффективности, потому что они представлены как главные критерии в формировании экономической эффективности.

***Ключевые слова: проект, риск, контроль, качество, структура, инвестиции, финансы.***

***master Narmina Rahman Mammadova,***
***Scientific leader: Firuza Najaf Aliyeva***
***PhD in Economics,***
***Azerbaijan Cooperation University***

**Regulation and management of project financing in management activities**

***Summary***

**Purpose of the research:** is to study and analyze the evaluation of projects, their economic efficiency, and the economic methods of efficiency in contract regulation of project activities in business management.

**Methodology of the research:** During the research, generalization and analysis methods, as well as decrees and orders related to the development and regulation of the national economy were used.

**Applied significance of the research:** Correct evaluation of projects in the increase of contract regulation in business activities may be useful for many organizations.

**Results of the research:** Correct provision of projects in the field of business and their content evaluation are of great importance in the increase of economic efficiency. Because these are presented as the main criteria in the formation of economic efficiency.

***Key words: project, risk, control, quality, structure, investment, finance.***